# Azərbaycan xalçaçılığı: keçmişdən gələcəyə

İradə Sarıyeva
*"Bakı xəbər" qəzetinin müxbiri*

*("Azərbaycan xalçaları keçmişdən gələcəyə" adlı jurnalist yazıları müsabiqəsində III yerin qalibi)*





Xalçanı milyon illərin yolçusu olan, əsrlərdən, qərinələrdən adlayan, dağlardan, dənizlərdən, çaylardan keçib gələn, özü ilə də min bir sehr gətirən qeyri-adi, sehrkar canlıya bənzətmişəm həmişə. Elə bilmişəm ki, xalçanın öz dili, öz səsi, öz taleyi, alın yazısı var.

Bizim Borçalıda xalçaçılığın üzü qədimlərdən bəri mövcud olduğu, dünən olduqca geniş yayıldığı, bu gün də yaşadığı məlumdur. Odur ki, hər bir ocaqda, evdə heç olmasa yaşı 100-150 il olan xalçalar var idi. O xalçaların üzərində iməkləyib ayağa durmuşuq.

Bizim kəndlərdə xalçaya həmişə böyük sevgi, ehtiram, deyərdim ki, hətta bir bağlılıq vardı. Hər kəsin evində xalça olardı və o xalçanın üzərindən saz, xəncər, qəmə, tüfəng asardılar. Bu xalçalar o qədər gözəl, füsunkar görünərdi ki, özümüz də bilmədən o xalçaların gözəlliyinə dalıb heykəlləşərdik. Xalçaların bədii-estetik görünüşü, oradakı naxışlar, təsvirlər valeh edirdi adamı. Bu xalçaları nənələrimiz, analarımız, qız-gəlinlərimiz toxuyardı. Nadir hallarda xalçanı ya bazardan alardılar, ya da sifarişlə toxudardılar. Qadınların əksəriyyəti xalça toxumağı bacardığından, evin ən dəyərli əşyalarından olan xalçanı özləri toxuyardı. Bu xalçaların naxışlarında nələr dil açmazdı, nələr... Hər kəs öz ovqatını, daxili aləmini, içində kök salan hissləri, ağlayan, gülən əhvalları xalçalara həkk edərdi... Ona görə də xalçalarımız başdan-başa tarixdir, insan taleyindən əyrilib hər ipi, hər çeşnisində, hər ilməsində bir ürək, bir barmaq döyüntüsü var. Rəssam nənələrimiz bu xalçalara elə təsvirlər, elə formalar vermişdi ki, bu gün də onlar öz sirliliyini qoruyur. Borçalıda ən geniş yayılan xalçalar "Kosalar", "Ləmbəli", "Faxralı" və başqaları olub.

Məldumdur ki, Azərbaycan ərazisində xalçaçılıq olduqca geniş yayılıb. Min illər boyu formalaşan, cilalanan bu sənət indi də davam etdirilir. Sevindirici haldır ki, Azərbaycanın bir çox yerlərində, o cümlədən də Azərbaycan türklərinin kompakt yaşadığı respublikalarda, ölkələrdə milli xalçaçılıq məktəbləri çox yüksək səviyyədə inkişaf edib. Köçəri həyat yaşayan, yayı yaylaqda, payızı binədə, qışı qışlaqda keçirən əcdadlarımız məişət mədəniyyətinə də xüsusi diqqət yetiriblər. Yun qırxımı zamanı nənələrimiz yunları toplayıb yuyub, qurudub, didib, darayıb, cəhrəsində əyirib,

517823

boyayıb, qışa hazırlıq görüb ki, qar qapının ağzını alanda xalça, palaz, kilim, cecim, xurcun toxusunlar. Əlbəttə, bunların arasında xalça daha çox zəhmət tələb edir. Bir xalçanı bir neçə qonşu qadın yığışıb bir neçə aya toxuyub başa çatdırardılar. Hana kəsiləndə evlərdə bayram edərdilər ki, bir neçə aylıq gərgin iş başa çatdırılıb. Əslində, xalçaçı nənələrimiz üçün xalça toxumaq ağır iş deyildi; bu onların məşğuliyyəti idi.

Azərbaycanda xalçaçılıq sənətinin tarixinə, müasir durumuna, gələcəyə açılan yollarına bir yazıda şərh vermək əlbəttə mümkün deyil. Amma qənaətlərimi, fikirlərimi bir yazıda imkan dairəsində canlandırmağa çalışacağam.

Bilirik ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra, bir sıra sahələr kimi, xalçaçılıq sahəsində də böyük problemlər, ağrılı illər yaşandı. Bir sıra səbəblər üzündən illərlə fəaliyyət göstərən xalça sexləri bağlandı, yaxud az işçi qüvvəsi ilə fəaliyyətini davam etdirdi. Bölgələrdə isə bu sənətə maraq bir qədər azaldı. Respublikanın əsas xalçaçılıq mərkəzlərindən olan Qarabağ, Laçın və Kəlbəcər, Zəngəzur kimi bölgələrimizdən



Tbilisidə Ş.Amiranaşvili adına İncəsənət Muzeyində Azərbaycan xalçalarından ibarət sərgi. 9 dekabr 2012-ci il

yerli əhalinin qaçqın düşməsi, onların köçkün vəziyyətində respublikamızın ayrı-ayrı yerlərinə pənah aparması bu sahəyə də zərər vurdu. Erməni işğalı nəticəsində xalçaçılıq sənətinə böyük zərbə dəydi. Milli-mənəvi dəyərlərimiz sırasında önəmli yer tutan xalçaçılıq sənəti xeyli müddət böhran vəziyyətində qalmağa məhkum olundu. Milli xalçalarımız, əsrlərin dolanbac yollarını aşıb gələn milli sərvətimiz olan xalçaçılıq sənətinə son illər böyük qayğı və diqqət göstərilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi nəticəsində xalçaçılığın inkişafının qanunvericilik bazası yaradılıb. Bu da məlumdur ki, 2004-cü il dekabrın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olunub, 2005-ci il fevralın 7-də həmin qanunun tətbiq edilməsi barədə fərman verilib. Onu da vurğulayım ki, Azərbaycan xalçalarının təbliği və nümayiş etdirilməsi məqsədilə Prezident İlham Əliyevin iştirakı ilə 2014-cü il avqust ayının 26-da Dənizkənarı Milli Parkın ərazisində unikal memarlıq xüsusiyyətlərinə malik olan Azərbaycan Xalçası Muzeyi açılıb. Xalqımızın əvəzsiz incisi olan xalçaçılıq sənəti bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bir tərəfdən Azərbaycan Xalçası Muzeyi üçün yeni bina tikilib, istifadəyə verilib, bu binada xalçaların qorunması, saxlanması, sərgilənməsi üçün bütün şərait yaradılıb. Burada xalçaların nümayişi, sərgisi həyata keçirilir, şəhərimizə qonaq gələn hər bir insan bu muzeyi görməyə tələsir. 1967-ci ildə yaradılan muzeydə Azərbaycan xalqının milli mədəniyyətinin



və incəsənətinin əvəzsiz xalça və xalq tətbiqi sənəti nümunələri ilə birgə müasir dövr rəssam və xalq sənətkarlarının ən nümunəvi əsərləri toplanıb. Muzeyin ekspozisiyasında toxuculuğun müxtəlif üsullarını, 10-dan artıq toxunma növünü, onun sirlərini öyrənmək və əyani tanış olmaq olar. Muzeyin nüfuzlu elmi mərkəz kimi tanınması onun beynəlxalq miqyasda ekspert kimi çıxış etməsinə imkan verir. Muzeyin zəngin maddi və elmi bazası əsasında 1983-1988 və 2003-cü illərdə "Şərq xalça sənəti", "Azərbaycan xalça sənəti" və "Azərbaycan xalçası və xalq tətbiqi sənəti" mövzularında I, II və III beynəlxalq simpoziumlar keçirilib. Azərbaycan xalçalarına, milli-mənəvi dəyərlərimizin şah əsərlərindən sayılan xalçaçılıq sənətinə xüsusi diqqət yetirilən, onun inkişafına təkan verən bir ocaq da var – "Azər-İlmə" Xalçaçılıq Mərkəzi. Sevindirici haldır ki, "Azər-İlmə"nin geniş miqyasda fəaliyyətə başlaması Azərbaycan xalçaçılıq mərkəzlərinin müasir dövrdə təbliğinə səbəb oldu. Çağdaş xalçaçılıq aləmində bu ocağın fəaliyyəti, burada toxunan xalçalar xüsusi önəm kəsb edir. Onu da vurğulayım ki, "Azər-İlmə"də Azərbaycan xalçaçılıq mərkəzlərinin bütün qolları öyrənilir, hər bölgəyə xas olan xalçalar toxunur. "Azər-İlmə" Azərbaycan xalçasının dünyada təbliğində önəmli rola malikdir, desəm yanılmaram. Çünki illərdir bu mədəniyyət ocağının fəaliyyətini yaxından izləyirəm və bir neçə dəfə də buranı ziyarət etmişəm. Bu da faktdır ki, "Azər-İlmə"də toxunan xalçalar nəinki Azərbaycanda, eləcə də dünyada brendə çevrilib və ölkəmizi layiqincə təmsil edə bilib. Əlbəttə, bir məsələ də qeyd edilməlidir ki, Heydər Əliyev Fondu xalçaçılıq sənətinin inkişafına xüsusi diqqət yetirir və bu sahənin inkişafını sürətləndirən işlərə dəstək olur. Bilirik ki, son zamanlara qədər dünya muzeylərində sərgilənən, dünya bazarına çıxarılan Azərbaycan xalçaları bizim adımızla deyil, qonşu xalqların adları ilə təqdim edilirdi, bu da bizim ziyanımıza işləyirdi. Amma bu təbliğatın ömrü o qədər də uzun olmadı, bu gün Azərbaycan xalçaları dünyada öz adımızla təbliğ olunur və tanınır.







Gözəllər-gözəli Azərbaycan xalçasının dünyada analoqu yoxdur. Bu fikri mübaliğəsiz deyirəm. Çünki analarımızın, nənələrimizin qayğısından, sevgisindən, barmaqlarının hərarətindən yaranan xalçaları başqa kimlər toxuya bilər ki?! Xalça bitib-tükənməyən bir nağmədir, oxunduqca maraqlı gəlir. İnsan nə qədər həyəcanlı, narahat olsa da, əlini xalçaya çəkərsə, canında bir rahatlıq, əhvalında bir duruluq hiss edər. Xalça başdan-başa hissiyyatdır. "Azər-İlmə"nin xalça aləmi adamı doğrudan da xəyali, lakin özün olan bir aləmə aparır. Burada nənə-babalarımızın ruhu ilə danışırsan sanki. Hər xalça çeşnisi bir yurdun, bir elin, bir məkanın melodiyasıdır elə bil. Ahanüba kimi çəkir səni özünə. Naxış elementləri, təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar elə bir sonsuz aləmdir ki, adam o aləmdə, o dünyada ərimək istəyir. Bir faktı da diqqətinizə çatdırım ki, bir vaxtlar xalçalar insanların həyatını xilas edib. Bu mənada ki, soyuqdan qorunmaq üçün dəyələrin, çadırların, alaçıqların içərisinə xalça çəkilirmiş ki, soyuq gəlməsin.

Arxeoloqların apardığı tədqiqatlar nəticəsində məlum olub ki, Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən (e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərində) məşğul olunub. Cənubi Azərbaycanın Maku şəhərindən tapılmış gildən düzədilmiş at fiqurunun (e.ə. II minillik) üzərində gül - çiçək təsvirləri ilə bəzədilmiş çul rəsmi, Urmiya gölü yaxınlığındakı Həsənli təpəsindən aşkar edilmiş qızıl camın (e.ə. I minillik) səthində üstünə çul salınmış şir təsviri və başqa tapıntılar Azərbaycanda xalça sənətinin nə qədər qədim tarixə malik olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən I-III əsrlərə aid katakomba qəbirlərdən palaz və xalça qalıqları aşkar edilib.

1. Xalça. "Ləmbəli". Yun. Xovlu. 280x185. XIX əsrin II yarısı. Qazax-Borçalı qrupu. Azərbaycan
2. Zili. Yun. Xovsuz. 215x162. XIX əsrin sonları. Qazax-Borçalı qrupu. Azərbaycan

1.



2.







Azərbaycan xalçaları həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür: Quba, Bakı (yaxud Abşeron), Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz. Bu məktəblərin də hər birinin özünəməxsusluğu, orijinallığı var. Fərəhləndirici haldır ki, bu məktəblərin xalça çeşniləri, üslub və xüsusiyyətləri bu gün də davam etdirilir. Yuxarıda qeyd etdiyim kimi, burada "Azər-İlmə"nin rolunu xüsusi qeyd etməliyik. Burada bütövlükdə Azərbaycan xalçaçılığının siması qorunur. Ulularımızın ruhları dolaşan bu məkanda insanın ruhu sakitlik tapır. Böyük xalçaçılıq məbədi kimi "Azər-İlmə"də hər məktəbin izi mövcuddur. Burada qədirşünas insan, Azərbaycan xalçalarının mahir bilicisi, dostu, munisi, "Azər-İlmə"nin rəhbəri, professor Vidadi Muradovun xidmətlərini qeyd etməsəm, ədalətsizlik etmiş olaram. Hələ sovet dövründən Vidadi müəllim Azərbaycan ellərini, eləcə də Qərbi Azərbaycanı, Borçalını və digər yurdlarımızı qarış-qarış gəzib xalçalarımızı toplayıb, onları tədqiq edib, çeşnilərini öyrənib və saysız məqalə, kitab nəşr etdirib. Bundan başqa, professor dünya muzeylərində və şəxsi kolleksiyalarda saxlanan xalçalarla tanış olub. Hətta, o xalçaların bir çoxunun dublikatı, bənzəri "Azər-İlmə" xalçaçıları tərəfindən yenidən toxunub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Şeyx Səfi" xalçasının bənzəri də bu ocaqda toxunub.

Sirr deyil ki, hazırda Azərbaycan xalçası bütün dünyanı heyrətə gətirir. Azərbaycan xalçaçılıq sənətinin keşiyində duran və onu təbliğ edən hər bir insana böyük minnətdarlıq ismarlayıram. Çünki bu nəcib, xeyirxah işi o adam görə bilər ki, onun qəlbində Azərbaycan boyda sevgi var və o, xalqımızın pasportuna çevrilən xalçalarımızı təmənnasız olaraq sevir.

*sentyabr 2015-ci il*